# BƏŞƏRİ İDEALLAR ŞAİRİ NİZAMİ GƏNCƏVİ



*(Nizami Gəncəvi - 880)*

Azərbaycan xalqının bəşər sivilizasiyasına bəxş etdiyi ən böyük şəxsiyyətlərdən biri Nizami Gəncəvidir. XII əsrin ədəbiyyat səmasında günəş kimi dünyaya parlayan İlyas Yusif oğlu Nizami Gəncəvi səkkiz yüz ildən çoxdur ki, qəlblərə nur çiləyir, könüllər dostu olaraq ruhumuza, düşüncəmizə, hərəkət və davranışımıza işıq tutur. Düzüb bağladığı müdriklik kitabının hər sətri ağıl və zəka örnəyi olaraq bütün sirlərin, müşküllərin açarı kimi rişələrini müqəddəs Gəncə torpağının təkindən, başı ərşə dayanan Kəpəz və Murov dağlarının könüllərə sərinlik səpələyən havasından alaraq dünyaya yayır. Şeyx Nizaminin hansı düşüncə ilə dünyaya gəlişindən və hansı mənəviyyatla boy göstərməsindən xəbər verən ədəbi irsi, mavi səmalara bülənd olan əsrarəngiz söz gülşəni Yaxın və Orta Şərqin təşnə ruhuna bu gün də bir şeyxlik missiyasında təskinlik gətirməkdədir. “Cilvəsini səndən necə o saxlar ki, hər beytində anladar bir əsrar” deyən Nizaminin bu əsrarının yaddaş və düşüncə stixiyası etnosun bütünlükdə mənəviyyat və mövcudluq təsəvvüründən yaşam fəlsəfəsinə, dünyanın bu başından o başına qədər gedib çıxacaq bəşəri ideallara bağlanır.

Əski zamanlardan Dədə Qorqudun başı üzərinə qaldırdığı müdriklik çələngi XII yüzillikdə Nizami ilə müsəlman Şərqində bir daha göy qübbəsi səviyyəsində sönməz nur çələngi timsalında daha da güclənən səviyyədə mənəvi dünyamıza bir rövnəqlik gətirir. İran və Turan, Ərəb və Əcəm çarpışmalarında əski mədəniyyət yatağının qəlb pulsu bütün tərəfləri ilə elə əski təsəvvürlərə bağlanmaqla, həm də onun daşıyıcısı və müdrikliyi statusuna dayanır. “Azərbaycanın XI əsrdə türkləşmiş (azərbaycanlılaşmış) o dövrün ədəbi abidələrində də sabit şəkildə göstərilmişdir. Məşhur Dədə Qorqud qəhrəmanlarının gəzib dolaşdıqları başlıca sahə Azərbaycandır; bu dastandakı əlamət və realilər Azərbaycan əlamət və realiləridir, dastanlarda işlənmiş ləhcə də azəri türkcəsidir. Oğuz boylarının X və XI əsrlərdə Azərbaycana gəlmələri ilə bağlı olan bu dastanların XII yüzillikdə Azərbaycan xalqına məlum olduğuna inanıla bilir” (5, 23). Dədə Qorqudun müdrikliyinin və qopuzun avazlandırdığı səs dalğalarının sədası XII əsrdə Nizami ecazkarlığında və rübabın əsrarəngiz sədalarında bütün Yaxın və Orta Şərq boyu onunla həmağuş olmaqla daha da gurlaşır və tarixin sonrakı dönəmlərində anadilli poeziyanın başı üzərində sanki bir çıraq yandırır. Mifdən eposa, eposdan dastana gələn ana axarın yazı mühitində “Xəmsə” adı ilə yaşarlıq qazanacaq formulunu müəyyənləşdirir. Böyük Azərbaycan şairi S.Vurğun şairin haqqında danışarkən (“Nizami” şeirində) “ellər, obalar dərs alacaqdır hələ səndən” söyləyir və əlavə edərək vurğulayır:

Sənsən əbədiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı, günəşdənmi yarandın, de nədən sən?
Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən.

S.Vurğunun “əbədiyyət” deyib, “sevgili dildar” kimi əzizlədiyi Nizami Gəncəvi elə bir kəhkəşanda söz mülkünə sahib olmuşdur ki, onun səpdiyi sərinlik dünyanın özü böyüklükdə bir gülşən olaraq möhtəşəm əlçatmazlığa dayanır və hər bir bəşər oğlu ondan götürə biləcəyi qədərində götürür.

VII-VIII əsrlərin ağır dolaylarığndan keçərək irəliləyən qoca tarix öz ləngərliyində təkcə mədəni təbəddülatlara yüklənmir, bütün olanlar, ictimai, siyasi, mədəni mühitdə baş verənlər əski postulatların dəyişməz mənəviyyat kodları və İran-Turan qarşıdurmalarında aparılan məqsəd və amal mücadilələri ilə XII əsrə daxil olur. Bəşəri düşüncənin ən dərin qatlarına işıq tuta biləcək mənəviyyat və özgürlük nuru Şirvanda Xaqani Şirvani, Gəncədə Nizami Gəncəvi ilə öz hökmfərmanlığını ortaya qoyur. Son olaraq bu olanlar və gələnən səkkiz yüz illik tarix anlamında “dünya durduqca da onun “Xəmsə”sinə cavab söyləmək mümkün olmayacaqdır” hökmü ilə həm də bu şərafət isə azərbaycanlılara aiddir” (4, 349) qənaətini də möhürləyir. Əmir Xosrovların, Əbdürrəhman Camilərin, Arif Ərdəbililərin, Əlişir Nəvailərin, Məhəmməd Füzulilərin böyük vurğunluq və pərəstişlə üz tutduqları Nizami söz mülkünə bir əsrarəngizlik əsdirməklə onun əlçatmazlıq bayrağını müqəddəs Azərbaycan torpaqlarından heç kəsə nəsib ola bilməyəcək səviyyədə ucalıqlara qaldıra bilmişdir.

XII əsr bütün parametrlərdə Şərq (islam) intibahı adı ilə Nizami timsalında özünün zirvə formulunu müəyyənləşdirir. Şairin lirik şeirlər “Divan”ı, “Xəmsə”si bunun möhtəşəmlik örnəyi kimi diqqət önünə gəlir. Təəssüflər olsun ki, N.Gəncəvinin “Divan”ı günümüzə qədər gəlib çatmamışdır. Ancaq əlimizdə olan rübai, qəzəl və qəsidələri onun yaradıcı istedadının bütövlüyünü və dinamik mənzərəsini aydınlaşdırmaq baxımından geniş imkanlar yaradır. “Sənsiz”dən “Xəmsə”yə gedən yolun ümumi axarını və onun mahiyyətində olanların “Süleyman və əkinçi”dən (“Sirlər xəzinəsi”ndə) “İsgəndərin peyğəmbərlik səfərinə çıxması”na (İsgəndərnamə” poeması) qədər geniş bir rəngarəngliyi əhatələməsi Nizami dühasının əlçatmazlığını müəyyənləşdirir. Şərq ədəbiyyatının görkəmli sənətkarlarından olan Hafiz Şirazi (1320-1390) “əski dünya Nizaminin nəzmi kimi gözəl söz yetirməmişdi” söyləyirdi. Doğrudan da, dahi sənətkarın hər bir poetik örnəyi yüksək sənət intelleksiyası ilə bütünlükdə Şərq ədəbi fikrinin ucalıq etalonu olaraq möhtəşəm təsəvvür formalaşdırmışdır. Məhz bu səbəbdən də onu “məram anladarkən ağıl peyğəmbərinin Cəbrayılı” olaraq diqqət önünə gətirmiş, bir meyar olaraq uca tutmuşlar. “Nizami fenomeninin mənşəyi məsələsinin həlli, şübhəsiz, həmin fenomenin konteksti məsələsini aradan qaldırmır – heç kəs inkar etmir ki, Nizami müsəlman şərqinin hadisəsidir... Və “Xəmsə”nin “metodologizm”i də təsdiq edir ki, dahi şairin təfəkküründə mənşə ilə sistemin münasibəti funksionaldır, yəni elə məqamlar tapmaq mümkündür ki, yalnız mənşə, yaxud yalnız sistem münasibətini ifadə edir. “Xəmsə”nin poetikasında qədim (ümumi) türk əlaməti genotip kimi, ümumşərq əlaməti isə fövqəltip kimi özünü göstərir – sistem isə genotiplə fövqəltipin mürəkkəb münasibəti əsasında müəyyənləşir” (2, 43-44). Nizami “Xəmsəsi”nin ümumi sistemi həm də onun geneologiyasında dayananaların mahiyyət məsələsi olaraq ortaya çıxır. Genotip və fövqəltip səviyyəsində elə ortaqlıq, hərəkətlilik yaradır ki, onun bədii axarı poetik sənət prinsiplərində bəşəri olanı ortaya qoya bilmək (və qoymaq) gücü ilə təmsil olunur. “Ağzımdan dürr kimi çıxan hər sözün, dürrünü verərəm şirin ömrümün” deyən şair əlavəsində “ələ gətirməkçün bir şəbçırağı, yaxıb yandıraram beyin, dodağı” ilə məram-məqsədinə diqqəti yönləndirir.

Qədim türk ədəbiyyatının yaddaş və yaradıcılıq tipologiyası bütün aspektlərdə etnik mədəniyyət təsəvvürünə bağlanmaqla, həm də ondan gələnləri daşımaq yolunu müəyyənləşdirir. İlkin örnəklərdən orta əsrlərə qədər olan tarixi-mədəni prosesin metodoloji prinsipləri bütünlükdə etnosun genoloji yaşam və düşüncə fəlsəfəsində oturuşmuş mükəmməllikdən qaynaqlanmışdır. Mərkəzi Asiya, Qafqaz səviyyəsində gedən tarixi proses türk etnomədəni təsəvvürlərini təbii olana kökləməklə epos və şərqi axarında elə ciddi məsələlərlə təmsil olunmuşdur ki, burada bütün baş verənlər etnik ruhun tələb və yaşarlığını əsas götürmüşlər. Mifdən eposa, eposdan Nizamiyə gələnlər timsalında etnokosmosun mükəmməllik nizamını sərgiləməklə həm də tarixə şahidlik missiyasını ortaya qoymuşdur. “Yüzillikləri arxada qoyub dövrümüzə qədər gələn və bəşəriyyət tarixində əbədi mövqe qazanan Nizami sənəti Azərbaycan ictimai-bədii fikrinin inkişafında özünəməxsus, orijinal bir mərhələ təşkil edir. Nizami əsərləri dünya şeir xəzinəsinin nadir incilərindəndir. Dahiyanə poetik kəşfləri ilə Yaxın və Orta Şərq ədəbiyyatının özündən sonrakı inkişaf yollarını işıqlandırmış Nizami Gəncəvi bu gün də bizim mənəvi müasirimiz kimi yaşayır, sevilir. Şairin təlqin etdiyi bəşəri ideyalar, humanist görüşlər, əxlaqi nəticələr xarakterin kamilləşməsinə, bütövləşməsinə kömək edir. Nizami irsinin əzəməti və estetik qüdrəti burada yüksək bədii şəkildə şərhini tapmış həyati, nəcib, ülvi arzu və istəklərin parlaq ifadəsindədir. Nizami şeiri nəsilləri yüksək ideallar uğrunda mübarizəyə, gözəllik və ülviyyəti duymaq və qiymətləndirməyə, xeyirxahlıq və qəhrəmanlığa sövq edir, insanı hər cür mənəvi və ictimai eybəcərliklərə qarşı barışmazlığ, kin və nifrət uğrunda tərbiyələndirir, ona dostluq və sədaqət, ədalət və məhəbbət hiss və duyğuları aşılayır” (3, 5). Artıq səkkiz yüz ildən çoxxdur ki, Nizami şeirləri bəşər oğlunun qəlbini oğvsunlamaqda, onun ruhuna sərinlik çiləməkdə, qopuzun türkün epos yaddaşından baş qaldıranların bir bütöv olaraq içinə almaqla “çala badam gözlü bir türk nəğməkar” təsəvvürünə köklənməkdədir. Nizami bütün yaradıcılığı ilə bəşər oğlunun ağıl, müdriklik, dərrakə mücəssəməsidir. Onun müqəddəs Gəncə torpağında əkib becərdiyi sənət gülşəni öz füsunkar rayihəsi və ecazkar görünüşü ilə bütünlükdə dünya boyu dolaşmaqdadır. Bu gülşənin gülzarına qonaq olanlar isə Süleymanın quş dilində söylədikləri bir ecazkarlığın əsiri səviyyəsində yolçuluğa başlayırlar. “Aşiqəm əmrini ver aşiqi-nalanə, gülüm” deyən şair “yanına ya gəlim əql ilə, ya divanə, gülüm” əlavəsini də unutmur, əksinə onun mahiyyətində olanların müəyyənlik düsturunu cızmaqla nələrə qərar verməsini diqqət önünə gətirir.

Karvansaradır qəmli könül eşq yolunda,
Bu dərd yatağı karvanı karvanə yetirdi.
Ömrün gəmisi ruzigarın dalğalarında,
Tufansız ötüb gör necə ümmanə yetirdi (3, 25).

“Gülüm”, “Yetirdi”, “Görünür”, “Sənsiz”, “Etmədədir”, “Yar”, “Olacaqsan”, “Bir gün”, “Gəldi” və s. rədifli poetik örnəklərin hər birisi Nizami istedadının sərhəd hüdudsuzluğunu müəyyənləşdirməklə, həm də onun ecazkarlıq mənzərəsində dayananların özü timsalında sənət kriteriyasını diqqət önünə gətirir. XII əsrin intəhasız ictimai-siyasi, ədəbi-mədəni qaynarlığında yaratdığı söz gülşəni dünyanın bu başından o başına qədər dizində taqət, ürəyində təpər olacaq bir iddia ilə boy göstərir. Hər misra, hər beyt bütünlükdə insan müdrikliyinin tipik nümunəsi olmaq səviyyəsində diqqət önünə gəlir və düşünməli olursan ki, bunlar hansı meyar və prinsiplərlə, qeyri-adi təfəkkürlə reallaşmışdır.

Cavanlıq var ikən əldə gərək qədrini bilə insan,
Əmin olma gələr bir də bu mülkü tərk edən karvan.
Bükülmüş qəddinə bir bax qocalmış şəxsin, həsrətlə-
Cavanlıq günlərin daim gəzər torpaqda sərkərdan.
Geri dönməz keçən bir gün, ayıq ol daima sən də,
Rəva olmaz ki, məstlər tək keçə qəflətdə bu dövran.

Azərbaycan ədəbiyyatı tarixi-mədəni axarında həmişə axtarışlar və tapıntılarla, yeni-yeni istedadların, ədəbi meyil və axınların, mühitlərin ortaya çıxması ilə diqqət önünə gəlir. Cahanşümul dövlət və mədəniyyət təsəvvürləri, qurub-yaratmaq düşüncəsi ilə əsrləri-əsrlərə calayan böyük ədəbiyyat etnoqrafik yaddaş gücüylə keçmişlə gələcək arasında körpü funksiyasını yerinə yetirir. Zəngin folklor mədəniyyəti, Orxon-Yenisey abidələri, M.Kaşğarinin “Divani-lüğət-it türk”, B.Yusifin “Kutadku bilik”, Ə.Firdovsinin “Şahnamə” və s. əsərlər silsiləsi söz-sənət axarının geneformulasına bağlanmaqla etnosun mədəniyyət təsəvvüründən öz rişəsini almaqla irəliləyir.

**(Davamı var)**



***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru, professor***